HEYDƏR ƏLİYEV

# MÜSTƏQİLLİK YOLU



BAKI - 1997

Т3(2А)
Ә 56

2/22259

HEYDƏR ƏLİYEV

# *MÜSTƏQİLLİK YOLU*

## Seçilmiş fikirlər

М. Ф. Ахундов адына
АДК-на
Акад. Б. Ә. Будаговдан
28.10.97.
Бакы ш.

BAKI - 1997

М. Ф. Ахундов адына

**Buraxılışa məs'ul:**
*RAMİZ MEhDİYEV*
fəlsəfə elmləri doktoru

**Tərtib edənlər:**
*ŞAHLAR ƏSGƏROV*
fizika-riyaziyyat elmləri doktoru
*SƏLAHƏDDİN XƏLİLOV*
fəlsəfə elmləri doktoru

**Redaktoru:**
*ƏLİ HƏSƏNOV*
tarix elmləri namizədi

**H.Ə. Əliyev.** Müstəqillik yolu. Seçilmiş fikirlər. — Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997 — 136 s.
ISBN 5-8066-0770-4

Kitab Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin siyasi-hüququ, sosial-iqtisadi və mədəni-mə'nəvi həyatın aktual problemləri ilə bağlı fəlsəfi yüklü fikirləri toplanıb təsnif edilmişdir.
Kitab siyasi xadimlər, ziyalılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ə $\frac{0201000000-1}{059-97}$

ISBN 5-8066-0770-4

© "Azərbaycan Universiteti" nəşriyyatı, 1997
© "Müstəqillik yolu". H.Ə. Əliyev 1997

## *ÖN SÖZ*

Azərbaycan Respublikası özünün ən şərəfli və çətin dövrünü yaşayır. Bir tərəfdən ədalətsiz müharibəyə cəlb olunmuşuq, digər tərəfdən də yeni iqtisadi münasibətlərə, bir ictimai-siyasi quruluşdan digərinə keçirik. Üstəlik dünya da yeniləşir. Bu dəyişən dünyada superdövlətlər əhatəsində olan gənc Azərbaycan dövləti müstəqil, suveren yaşamanın formulasını araşdırır, axtarır. Belə bir mürəkkəb dövrdə ictimaiyyətin, vətəndaşlarımızın, böyüməkdə olan yeni nəslin aydın, şəffaf, ümumiləşdirici, istiqamətverici ideyalara, müdrik kəlamlara ehtiyacı böyükdür. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin ölkəmizin ictimai həyatının müxtəlif sahələri ilə bağlı söylədiyi müdrik fikirlərin toplanıb çap olunması bu ehtiyacın ödənilməsinə xidmət edir.

Heydər Əliyevin böyük dövlət xadimi, təcrübəli və ustad siyasətçi, fenomenal hafizəyə və incə duyuma malik şəxsiyyət olması hətta oppanentləri tərəfindən də e'tiraf edilən danılmaz həqiqətdir. Dövrün tanınmış şəxsiyyətləri, dövlət başçıları onun haqqında ən yüksək epitetlər işlətməkdən çəkinmir, iftixar hissi ilə danışırlar.

Beynəlxalq forumlarda, yüksək dairələrdə bə'zi dövlət başçılarının adı ancaq hansı isə böyük ölkəni təmsil etdiyi üçün siyahıya düşür. Əksinə, bə'zən kiçik

dövlətlər öz başçılarının şəxsi nüfuzu hesabına diqqət mərkəzində olur. Son illərdə Azərbaycanın beynəlxalq miqyasda sözünün, səsinin eşidil-məsi, ona diqqətin artması heç də yalnız ölkəmizin tutduğu əlverişli strateji mövqe ilə, təbii sərvətləri, malik olduğu neft ehtiyatları ilə bağlı olmayıb, həm də və bəlkə daha çox dərəcədə onun prezidentinin bir şəxsiyyət kimi, dövlət xadimi və siyasi lider kimi böyük nüfuzu, unikal fərdi keyfiyyətləri ilə bağlıdır. Belə keyfiyyətlərdən biri də Heydər Əliyevin hansı mövzuda danışırsa danışsın hadisələrin arxasında mahiyyəti görə bilmək qabiliyyətidir. O danışdıqca fitri natiqlik məharəti ilə hadisələrin təfsilatından fəlsəfi qatlara keçir, problemə ümumiləşmiş nəzər salır və bu ümumi fonda hadisənin məğzi çox aydın görünür.

Heydər Əliyevin müxtəlif çıxışlarından seçilərək oxuculara təqdim olunan bu fikirlərin özünəməxsus belə bir cəhəti vardır ki, onların hər biri konkret dövr, hadisə, situasiya ilə bağlı deyilmiş, lakin öz ümumiləşdirici xarakterinə görə lokal. zaman və məkan hüdudlarını aşaraq müstəqil fikir kimi yaşamaq hüququ qazanmışdır. Fikirlər də ilhamsız, ölçü-biçi ilə yazılan şe'rlər kimi qondarma şəkildə düşünülüb tapılırsa ömrü az olur, unudulub gedir. Əksinə, reallıqdan doğan təəssürat ilhamla, vurğunluqla incilənib şe'rə düzüləndə əsl poeziya yarandığı kimi, zamanın hökmü ilə, təbii yolla yaranan, həyatın dibindən çıxarılan hikmətlər də bəşər yaddaşına əbədi həkk olunur.

Azərbaycan xalqı mütəfəkkir xalqdır. Min illərin sınağından çıxmış "atalar sözləri"ndə, bir-birindən



məşhur mütəfəkkir-şairlərin və filosofların yaradıcılığında həyatın bütün sahələrinə hikmət işığında nəzər salınmışdır. Belə zəngin fikir xəzinəsi olan bir xalqı yeni sözlərlə və ya söz dünyasında yeniliklə heyrətləndirmək çox çətindir. Bununla belə bir şəxsin cəmi üç il ərzindəki çıxışlarında o qədər yeni sözlərə, fikirlərə, qanadlı ifadələrə rast gəlirik ki, heyrətlənməmək mümkün deyil.

Heydər Əliyevin "Müstəqillik yolu" dərin bir dünyagörüşündən, çoxillik həyati təcrübədən xəbər verməklə yanaşı müasir Azərbaycan gerçəkliyini, xalqımızın mədəni-mə'nəvi və intellektual həyatını adekvat surətdə əks etdirməklə çağdaş Azərbaycan ictimai fikrində bir ölçü vahidi kimi qəbul edilə bilər.

Oxuculara təqdim olunan bu kitabda Heydər Əliyevin ideya dünyasından ancaq müəyyən fraqmentlər öz əksini tapmışdır. Biz şübhə etmirik ki, bu mövzuda hələ neçə-neçə yeni kitablar nəşr olunacaq və bu zəngin fikir xəzinəsi daha dolğun əks etdiriləcəkdir.



Mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur!



## *DÖVLƏTÇİLİK*

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!

*
* *

Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır.

*
* *

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq böyük gələcəyə doğru inamla addımlayır.

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

*
* *

Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrə'ylik tələb olunur.

*
* *

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir.

*
* *

Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti — dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.



Respublikamızda hüquqi dövlət qurulması demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin tə'min edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir.

*
* *

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

*
* *

Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

*
* *

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mə'nəviyyatına, məsləkinə müxalifətdə durmasın.

Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.

*
* *

Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır, hər bir vətəndaş özünü azad, sərbəst hiss etməlidir.

*
* *

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

*
* *

Biz öz daxili siyasətimizdə çalışırıq ki, Azərbaycanın dövlət quruculuğu, cəmiyyətin təşkil edilməsi və iqtisadiyyatın inkişafı dünya dövlətlərinin təcrübəsi əsasında olsun və beləliklə də, Azərbaycan Respublikası dünya miqyasında öz layiqli yerini tuta bilsin.



Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

*
* *

Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin tə'minatıdır.

*
* *

Demokratik prinsiplər bu günümüzün, gələcəyimizin əsasını təşkil edəcəkdir.

*
* *

Dövlət quruculuğunda nəinki tarixi və milli ən'ənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir.

*
* *

Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır.

Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin.

*
* *

Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

*
* *

Müstəqil Azərbaycan dövləti sözün tam mə'nasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

*
* *

Müstəqillik yolu qədər çətin yol yoxdur.

*
* *

İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir.



İnsan azadlığı , söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbyacanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır.

*
* *

Azərbaycanda siyasi plüralizm varsa, demək, siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edir, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayır.

*
* *

Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya is'tiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir.

*
* *

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qurur hissi ilə bəyan edəcəkdir.

Azərbaycanın müstəqilliyi Azərbaycan Respublikasının dünya birliyində tutduğu yer ilə bağlıdır.

*
* *

Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir.

*
* *

Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

*
* *

Bir var dövlət işi ilə məşğul olan adamlar, bir də var adi vətəndaş. Adi vətəndaş da, əgər həqiqətən vətəndaşdırsa, Vətənin övladıdırsa, deməli, öz Vətəninə, burada gedən proseslərə, dövlətinə biganə qala bilməz.

*
* *

Bizim indiyə qədər yaranmış intellektual potensialımız, iqtisadi potensialımız, insanlarımızda indiyə qədər yaranmış olan qüdrət,cəsarət müstəqil Azərbaycanı yaşadacaq, nəsillərdən nəsillərə veriləcəkdir.



*
* *

Respublikamız artıq böyük bir dövlətdir. Bu dövləti biz öz gücümüzlə, vətənpərvər insanların gücü ilə qoruyuruq və qoruyacağıq.

*
* *

Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır.

*
* *

Mən Azərbaycanda bütün məsələlərin demokratiya yolu ilə həll olunmasının tərəfdarıyam.

Əgər bu gün qarşımızda duran vəzifələri layiqincə yerinə yetirə bilsək, Azərbaycan xalqı, respublikası, müstəqil dövlətimiz üçün gələcəkdə daha gözəl şərait yarada bilərik.

*
* *

Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur.

*
* *

Azərbaycanın müstəqilliyi, müstəqil dövlətimizin hərtərəfli fəaliyyəti torpaqlarımızın azad edilməsi ilə bağlıdır.

*
* *

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.



Azərbaycan öz torpaqlarının, öz taleyinin sahibi, öz dövlətinin sahibi kimi gələcəkdə də müstəqil dövlət olaraq yaşayacaqdır.

*
* *

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

*
* *

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhdudiyyətlərə düçar olsa da. qurbanlar versə də mətin iradəsi sarılmamışdır.

*
* *

İndi biz dövlət müstəqilliyi əldə etdiyimiz, öz taleyimizin sahibi olduğumuz bir dövrdə problemlərimizi özümüz həll etməliyik.

2/2259



İndi müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri respublikanın pozulmuş ərazi bütövlüyünü bərpa etməkdir.

*
* *

Hər bir demokratik cəmiyyətdə şübhəsiz ki, müxalifət olmalıdır.

*
* *

Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

*
* *

Bizim konstitusiyamız xalqın konstiutsiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır!

*
* *

Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi

М. Ф. Ахундов ...
... китаб ...



keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən , dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik.

*
* *

Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir.

*
* *

Konstitusiyamızın müddəaları həm bu günümüz üçün, həm də gələcəyimiz üçün yazılmalıdır.

*
* *

Konstitusiya — əsas qanun ölkədə, respublikada sabitliyi tə'min etməlidir.

*
* *

İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu çox məs'uliyyətli və çox şərəfli bir vəzifə-

dir. Bu bizə nəsib olubdur və güman edirəm ki, biz, yə'ni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik.

*
* *

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən, Azərbaycan xalqının körkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşdurlar.

*
* *

Azərbaycan Demokratik Respublikası ilk dəfə milli azadlıq, müstəqillik toxumlarını bütün Azərbaycana səpdi. Bu toxumlar uzun müddətdən sonra cücərdi , boy atdı və nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini əldə etdi.

*
* *

Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var. Bəli, dünyada elə qüvvələr var ki, Azərbaycanın müstəqil dövlət olmasını



istəmirlər. Dünya da görür ki, səkkiz ildir Ermənistan Azərbaycana təcavüz edir... Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir. Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etmək ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır – bu asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var.

*
* *

Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

*
* *

Son iki il müddətində Azərbaycanın başına gəlmiş ağır bəlalardan müvəffəqiyyətlə çıxmağımızın əsas səbəbi odur ki, xalq ilə dövlətin tam həmrə'yliyi əldə olunub.

*
* *

Rusiya ilə dostluq münasibətlərinin bizdən ötrü prinsipial əhəmiyyəti var. Rusiya dünyanın ən mühüm dövlətlərindəndir, bizi onunla çoxəsrlik tarix

bağlayır, o bizim qonşumuzdur və Azərbaycanın iqtisadiyyatının, elminin, mədəniyyətinin inkişafında çox böyük rol oynamışdır.

*
* *

Bə'ziləri belə hesab edirlər ki, Azərbaycanda demokratiya Böyük Britaniyada, Fransada, yaxud ABŞ-dakı kimi olsun. Biz bu səviyyəyə çatmağa çalışırıq. Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.

*
* *

Müstəqilliyi tə'min etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır.

*
* *

Azərbaycanda zorla, güc işlətməklə, silah gücünə hakimiyyət əldə etmək mümkün deyildir. Bunu hamı bilməlidir, hamı dərk etməlidir və belə cinayət əməllərindən çəkinməlidir!



Azərbaycan heç bir ölkənin tə'siri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Başqa yolla gedən adam, demək, başqa məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur.

*
* *

Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi — Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycan Prezidenti heç vaxt bununla razı ola bilməz!

*
* *

Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan

xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

*
* *

Torpağımızın hər bir qarışının itməsi bizim üçün dəhşətlidir, ... düşmən tapdağı altında qalması bizim üçün ağır dərddir, böyük bir faciədir.

*
* *

Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olmuş torpaqlarımızı azad etmək, Respublikanın ərazi bütövlüyünü tə'min etməkdir.

*
* *

Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər — ancaq Azərbaycanın Konstitusiyası çərçivəsində,



Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində!

*
* *

Azərbaycan demokratik dövlətdir, hüquqi dövlətdir.

*
* *

Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz tikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq.

*
* *

Azərbaycanın müstəqil bir dövlət olması dünyada, xüsusən o vaxtlar Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi, obyektiv proseslərin məntiqi nəticəsidir.

*
* *

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevi-

nirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

*
* *

Yeni Azərbaycan Partiyası o halda həqiqi sağlam, mübariz və doğrudan da görkəmli partiya olar ki, onun daxilində fikir mübadiləsi getsin, fikir toqquşmaları getsin, sağlam prinsiplər əsasında mübarizə getsin .

*
* *

İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır ... hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.

*
* *

Nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə – Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir.



Hamımız Azərbaycanın müstəqil dövlət olmasının tərəfdarıyıq və şəxsən mən dəfələrlə qeyd etdiyim kimi, harda olmağından asılı olmayaraq bütün fəaliyyətimdə və həyatımın son dəqiqəsinədək Azərbaycanın müstəqil dövlətçiliyini qoruyacağam. ....Bizim ideologiyamızın əsası budur.

*
* *

Azərbaycan cəmiyyətinin əksəriyyəti kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və Azərbaycanın müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, eyni zamanda milli ən'ənələr əsasında hüquqi dövlət qurmaq yolu ilə getməsinin tərəfdarıdır.

*
* *

Bu gün ən mühüm vəzifə konstitusiaynı daha dərindən mənimsəmək və onun verdiyi tə'minatlarından bəhrələnməkdən ibarətdir.

*
* *

Hər bir şəxs konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrin layiqincə yerinə yetirmək ödkəmizdə gedən demokratik hüquqi,

dünyəvi dövlət quruluculuğu prosesin də yaxından iştirak etməlidir.

*
* *

Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir .

*
* *

Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

*
* *

Yeni Azərbaycanda demokratiya prinsipləri bərqərar olmalı, hər yerdə insan azadlığı tə'min edilməli, insan haqqları qorunmalı, vicdan azadlığı, din azadlığı tə'min edilməlidir.



Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir.

*
* *

Əminəm ki, Azərbaycanın ilk demokratik konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini tə'min edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünə məxsus yer tutan müstəqil Azərbaycan dövləti miras qoyacağıq.

*
* *

Bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz.

*
* *

Biz bütün cəmiyyətimizi demokratikləşdirmək istəyirik, ona görə də qəbul etdiyimiz konstitutsiya əsasında respublikamızda bu işləri addımbaddım görürük..

Biz Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etməli, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimayyətinə çatdırmalı və beynəlxalq ictimayyətin köməyilə Qarabağ məsələsini sülh yolu ilə həll etməliyik .

*
* *

Dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük tarixi nailiyyətimizdir və biz bunu qoruyub saxlayacağıq.

*
* *

Xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır.

*
* *

Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ən'ənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır.



Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə e'tiqad edən adamlardır.

*
* *

Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun.

*
* *

Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir.

*
* *

Azərbaycan indi keçmiş Azərbaycan deyil. Azərbaycan dünya birliyində öz yerini tapıb və hər

yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir.

*
* *

Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz tə'min edilsin, Azərbaycan müharibə şəraitindən çıxa bilsin.

*
* *

Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır.

*
* *

Müstəqil Azərbaycan Respublikası bizim ən böyük tarixi nailiyyətimizdir!



Azərbaycan dövlətnin daxili və xarici siyasəti xalqımızın iradəsinin beynəlxalq aləmdə təsdiqinə, qarşıda duran tarixi vəzifələrin dönmədən həyata keçirilməsinə xidmət edir.

*
* *

Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrə'ylik tələb olunur .

*
* *

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

*
* *

Dövlət onun ərazisində yaşayan əhalinin tə'minatçısı olmalıdır.

Müstəqil Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyin ümüdilə yaşayıram!

*
* *

Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!

*
* *

Hamını Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi, mustəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə fəaliyyətə, birliyə, əməkdaşlığa də'vət edirəm!

*
* *

Azərbaycanın dövlət müstəqilliyi dönməzdir və biz müstəqilliyimizə, milli azadlığımıza qəsd olunmasına heç vaxt yol verməyəcəyik!



Azərbaycan bir daha sosializm sisteminə qayıtmayacaqdır!

*
* *

Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır!

*
* *

Bizim konstitusiyamız xalqın konstitusiyasıdır!

*
* *

Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir!

*
* *

Bizim müstəqilliyimizi heç kəs sarsıda bilməz!

Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!

*
* *

Biz Azərbaycan dövlətçiliyini qorumağa qadirik və bundan sonra da qoruyacağıq!

*
* *

Azərbaycan heç bir ölkənin tə'siri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır!

*
* *

Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var!

*
* *

İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır!



*
* *

Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir!

*
* *

Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir!

*
* *

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, Azərbaycan Respublikasını erməni təcavüzündən xilas etmək üçün, hüquqi demokratik dövlət qurmaq üçün hamını birliyə, əməkdaşlığa də'vət edirəm!

*
* *

Bizim konstitusiyamız Azərbaycanın gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik!

## *ORDU QURUCULUĞU*

Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.

*
* *

Biz bu gün böyük iftixar hisssi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu — respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini tə'min etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün. torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.

*
* *

Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxu-



nulmazlığını tə'min etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik.

*
* *

Gənclər bilməlidirlər ki, 1941—1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhramanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhramanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır.

*
* *

Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz Silahlı Qüvvələrinin əzm və qüdrətinə arxalanaraq çətin və ağır dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

*
* *

Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

*
*   *

Müstəqil dövlətin özünə məxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

*
*   *

Bu gün biz böyük iftixar hissi ilə deyirik ik, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

*
*   *

Xalqla ordunun birliyi həm xalqın qüdrətini həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.

*
*   *

Azərbaycanın ərazi bütövlüyünü tə'min etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq!



Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

*
*   *

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir.

*
*   *

Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin dayağıdır.

*
*   *

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!

*
*   *

Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun.

Bütün qüvvələr ordu quruculuğuna səfərbər olunmalıdır.

*
* *

Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin tə'minatçısı olmuşdur və gələcəkdə də olacaqdır.

*
* *

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini tə'min edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox e'tibar etməsinə əsas verir.

*
* *

Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daimi yaşayacaqdır. Onların qəhrəmanlığı, şəhidliyi Azərbyacan ordusununun əsgərləri üçün böyük örnək olacaqdır.



Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz tikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq.

*
* *

Azərbaycan xalqı qəhrəman xalqdır.

*
* *

Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi.

*
* *

Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı e'tiraf etməliyik.

*
* *

Dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik!

Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır!

*
* *

Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

*
* *

Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də mətin iradəsi sarsılmamışdır.

*
* *

Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətəni qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir.



Hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şey həll edirlər.

*
* *

Xalqımız bilməlidir ki, biz özümüz özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.

*
* *

Biz sərhədlərimiz çərçivəsində olan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq.

Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

*
* *

Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

Biz Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etməli, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimayyətinə çatdırmalı və beynəlxalq ictimayyətin köməyilə Qarabağ məsələsini sülh yolu ilə həll etməliyik.

*
* *

Hərbi xidmət insanları daha da mətinləşdirir, daha cəsarətli, dözümlü edir, çətinlikləri aradan qaldırmaq keyfiyyəti aşılayır.

*
* *

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

*
* *

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir!

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!



## İQTİSADİYYAT

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaq və respublikanın iqtisadiyyatında islahatlar aparmaq, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq prinsiplərini əsas götürmüşdür.

*
* *

Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi, intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərindən biri də ölkəmizin coğrafisiyasi mövqeyidir.

*
* *

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olma-

dan, sə'ylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqiyyə nail ola bilməz.

*
* *

Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionallaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir.

*
* *

Biz bazar iqtisadiyyatı yolu ilə cəsarətlə getməliyik!

*
* *

Yol — iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.

*
* *

Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.



Torpaqlarımız, hava, su, ərazimiz Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının sür'ətlə artırılmasına yönəldilməli, istifadə olunmalıdır.

*
* *

Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

*
* *

Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.

*
* *

Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik.

Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, düünyada daha da yüksəltmək üçün bu, yeganə bir yoldur.

*
* *

Azərbaycan Respublikasının böyük potensialı var bu iqtisadi potensialdan səmərəli istifadə etmək bizim vəzifəmizdir.

*
* *

Özəl sektorun inkişafı dövlət mülkiyyətinin dağıdılması yolu ilə yox, dövlət mülkiyyətinin qanun-qayda ilə, ədalətlə özələşdirilməsi yolu ilə getməlidir.

*
* *

Əgər biz istəyiriksə doğrudan da, həqiqətən respublikamızın təbiətindən, torpağından, suyundan, havasından, kənd təsərrüfatı imkanlarından maksimum istifadə edək, xalqımızın rifahını yaxşılaşdıraq, iqtisadiyyatı yüksəldək, kənd əhalisinin rifahını yaxşılaşdıraq, onda biz bazar iqtisadiyyatı yolu ilə getməliyik. Başqa üçüncü yol yoxdur.



Neft — Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur.

*
* *

Özəlləşdirmədə sosial ədalət prinsipi əsas me'yardır və bunu heç kəs unutmamalıdır!

*
* *

Dövlət adamları kimi bizim vəzifəmiz milli sərvətimizə son dərəcə qənaətlə və qayğı ilə yanaşmaqdır.

*
* *

O dövrlərdə (sovet dövrü — Red.) yaranmış iqtisadi potensial da bizim böyük sərvətimizdir. Bu sərvət də Azərbaycanın tam sərbəst, heç bir dövlətdən asılı olmayaraq yaşamasına imkan verir. Güman edirəm ki, biz müstəqilliyimizi tam bərqərar etdikdən və qarşıda duran vəzifələri həyata keçirdikdən sonra ölkəmizin bu iqtisadi potensialının bəhrələrini Azərbaycanın hər bir vətəndaşı görəcək və bunun sayəsində şən, firavan yaşayacaqdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən də istifadə etmək, islahatlar aparmaq, bazar iqtisadiyyatı yolu ilə getmək, sərbəstlik vermək, torpağı kəndlilərə vermək, onları torpağın sahibi etmək, mülkiyyət formasını dəyişdirmək lazımdır.

*
* *

Bazar iqtisadiyyatının ən böyük xüsusiyyəti ondan ibarətdir ki, insanlara sərbəstlik verilir, onlar təşəbbüs göstərərək çox iş görə bilir.

*
* *

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə istismarına dair xarici neft şirkətləri ilə bağlanmış müqavilələrin son dərəcə böyük əhəmiyyəti var.

*
* *

Bizim iqtisadi siyasətimiz mə'lumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır.



Biz həm ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qorumaq üçün çalışırıq, həm də vətəndaşlarımızın, xalqımızın rifahını yaxşılaşdırmağa, yaranmış vəziyyətdə müxtəlif və yeni formalardan istifadə edərək iqtisadiyyatı inkişaf etdirməyə çalışırıq.

*
* *

Respublikamızın istehsal imkanları, təbii sərvətləri və o cümlədən Azərbaycanın təbiətindən alınan məhsullar çox zəngindir, genişdir. Bunlardan səmərəli istifadə etmək lazımdır .

*
* *

Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur.

*
* *

Yer üzərindəki təbii sərvətlər təbiət, ilahi tərəfindən yaradılıbdır. Ancaq torpağın, yerin, kürreyi-ərzin üzərində yüz illərlə, min illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası, onların əlləri ilə yaradılıbdır.

Dünya ümumiyyətlə quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edibdir.

*
* *

Respublikamızda iqtisadi islahatlar həyata keçirilir və insanların təşəbbüskarlıq, sahibkarlıq addımları dövlət və hökümət tərəfindən bəyənilir, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradılır.

*
* *

Bu gün bir daha bəyan edirəm ki, bazar iqtisadiyyatının inkişaf etdirilməsi üçün Azərbaycan dövləti, hökuməti tərəfindən bundan sonra da lazımi tədbirlər görüləcəkdir.

*
* *

Sağlam, təmiz, pak bazar iqtisadiyyatı yolu ilə gedən iş adamlarına Azərbaycanda geniş yer veriləcəkdir, xarici şirkətlərə, sərmayəçilərə geniş meydan açılacaqdır.

*
* *

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.



## MƏDƏNİYYƏT

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

*
* *

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

*
* *

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir.

*
* *

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

*
* *

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

*
* *

Biz bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik.

*
* *

Azərbaycan rəssamlıq məktəbi çox yüksək səviyyəyə malikdir. Mədəniyyətimizin böyük nailiyyətlərindən biri də XX əsrdə Azərbaycanda böyük rəssamlıq məktəbinin yaranması, çox görkəmli rəssamlarımızın, heykəltəraşlarımızın, me'marlarımızın yetişməsi və onların yaratdıqları əsərlərdir.



Azərbaycan musiqisi, xüsusən professional musiqisi böyük tarixə malikdir. Üzeyir Hacıbəyovun Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib.

*
* *

Azərbaycan klassik professional musiqisi– bəstəkarlarımızın yaratdığı bu əsərlər Şərq aləmində demək olar ki, ilk professional, klassik musiqi nümunələridir və burada Azərbaycan birinci yerdədir.

*
* *

Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkir adamlarımız, dünya mədəniyyətini zənginləşdirmiş insanlar.. xalqımızın öz kökü, öz geni ilə böyük mədəniyyətə malik olduğunu sübut edir.

*
* *

XX əsrdə mədəniyyətimiz yeni bir inkişaf mərhələsi keçibdir. Xüsusən, incəsənətimizin böyük

bir sahəsi olan musiqidə professional musiqi yaranıbdır. Bu sahədə də, şübhəsiz ki, dünya miqyasında yüksək zirvələrə çatmış professional musiqi nümunələrindən istifadə edən, eyni zamanda fitri istedada malik olan şəxsiyyətlərimiz tərəfindən böyük bir məktəb yaradılmışdır.

*
* *

Bizim musiqimiz — xalq musiqisi, folklor musiqisi çox rəngarəngdir, çox zəngindir.

*
* *

Bə'zən tarixdə belə olubdur: böyük iste'dadlar meydana çıxıb, amma qısa bir müddətdə sönüblər. Ona görə yox ki,onların istedadı birdən kəsilibdir. Yox,ona görə ki, bəzi səbəblərdən onlar o yolu düz keçə bilməyiblər, o yolla inamla gedə bilməyiblər.

*
* *

Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman iste'dadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər.



Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

*
* *

Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin tə'siri böyükdür.

*
* *

Yeni-yeni təhsil ocaqlarının, ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur.

*
* *

Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

*
* *

Ədəbiyyatın insanlara böyük tə'siri vardır.

Bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür.

*
* *

Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.

*
* *

Hər bir bədii əsər insanlara tə'sir göstərir, şübhəsiz ki, müsbət tə'sir göstərir, onların xarakterinin formalaşmasına, inkişaf etməsinə, mədəni səviyyəsinin artmasına böyük tə'sir göstərir. Amma musiqi əsərinin vasitəsilə göstərilən tə'sir, bütün o biri əsərlərin tə'sirindən yüksəkdir.

*
* *

Hər bir xalqın mədəniyyəti həmişə onu yüksəldir, bütün dünyada tanıdır, mə'nəviyyatını zənginləşdirir.

*
* *

Xalqımız zəngin mədəniyyətə malikdir.



Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.

*
* *

Cəmiyyət böyükdür. İndi bizdə yeddi milyon əhali var. Bunlar hamısı bizim cəmiyyətdir. Amma xalqın içərisindən çıxan ziyalılar tək-tükdür. Bunlar kütləvi deyil. Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri iste'dada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyətiilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar. Biz öz hərəkətlərimizlə, öz münasibətimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq. Bu adamları təhqir etmək, onlara hörmət etməmək son illərdə cəmiyyətimizdə olan əcaiblikdir. Biz bunlara son qoymalıyıq.

*
* *

Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir.

Azərbaycanda ali təhsilin, ümumi təhsilin, elmin, mədəniyyətin, iqtisadiyatın inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir. Universitetin 75 illik tarixi Azərbaycan Respublikasının elminin, mədəniyyətinin, təhsilinin inkişaf tarixidir.

*
* *

Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbyacan Respublikasının milli sərvətidir, milli iftixarıdır və onun 75 illik yubileyi bütün Azərbaycan xalqının böyük bayramıdır.

*
* *

Xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mə'nəvi dəyərini qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir.

*
* *

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bu günükü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli şairlərimiz, yazıçılarımızdır.



Mədəniyyətimizin, elmimizin , təhsilimizin insanların mə'nəviyyatını daha da yüksəklərə qaldırması üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir.

*
* *

Xalqımızın görkəmli mütəfəkkirləri, publisistləri, jurnalistləri, yazıçılırı və satirikləri mətbuat vasitəsilə milli şüurun, mə'nəviyyatın və mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişlər.

*
* *

Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir.

*
* *

Maarifçilik Azərbaycanın mütəfəkkir adamlarının əsas vezifəsi olmuş və xalqımızın görkəmli simaları bu sahədə tarix boyu böyük xidmətlər göstərmişlər.

Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mə'nəviyyat sahibi olması — bunlar hamısı XX əsrdə alimlərimizin , müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur.

*
* *

Əgər biz xalqımızda mə'nəvi dəyərləri inkişaf etdirmək istəyiriksə , birinci növbədə ziyalılarımızın mə'nəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər.

*
* *

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

*
* *

Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mə-



dəniyyətimizə, elmimizə, mə'nəviyyatımıza əsaslanır.

*
* *

Elmimizlə, mədəniyyətimizlə, mə'nəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır.

*
* *

Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik!

*
* *

Şübhəsiz ki, insanlara şe'r qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü tə'sir edən, yə'ni insanların mə'nəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü tə'sir göstərən başqa bir vasitə yoxdur.

*
* *

Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini

tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.

*
* *

İnsanların ürəyinə, qəlbinə tə'sir edə bilən ədəbiyyatımız olubdur, şe'rimiz olubdur və həmin şe'rlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yə'ni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik.

*
* *

Azərbaycanın mədəniyyəti öz milliliyini saxlayaraq bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.



Ədəbiyyatımız, incəsənətimiz, rəssamlıq, heykəltəraşlıq məktəbimiz, musiqimiz, teatr mədəniyyətimiz dünya səviyyəsində yüksək zirvələrə qalxmışdır.

*
* *

Əgər Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə 1873-cü ildə milli teatr yaratmış və dünya mədəniyyətinə, Avropa mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər böyük mə'nəviyyatı var. O nə qədər böyük mədəniyyətə nə qədər yüksək intellektə malikdir və onun nə qədər böyük daxili qüdrəti var!

## TARİX

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

*
* *

Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq.

*
* *

Tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır.

*
* *

Əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir. Tariximizin hər səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri də qaranlıq səhifələri də var, təntənəli səhifələri də, faciəli səhifələri də var.



Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 yanvar hadisələrinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq faciə hansısa səbəbdən baş verir, beləcə durduğu yerdə baş vermir, bu, ola bilər təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən hadisənin şübhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mə'nada yanaşmaq lazımdır. Getdikcə bu hadisələrin daha geniş mə'nasını dərk edirik.

*
* *

20 yanvar hadisəsinin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların taleyi ilə məhdudlaşa bilməz. Bu ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.

*
* *

Tariximiz zəngindir, eyni zamanda əzab-əziyyətli tarixdir. Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

Azərbaycan xalqı aciz deyil, onun qəhrəmanlıqla dolu keçmişi var .

*
* *

Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

*
* *

Tarixi olduğu kimi qəbul etmək , dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır, tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz.

*
* *

Biz yaşadığımız uzun bir dövrü silib-poza bilmərik.

*
* *

Bizim xalqımızın böyük tarixi, qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi mə'lumdur. Bizə də mə'lumdur, dünyaya da mə'lumdur. Əsrlər boyu



dəfələrlə xalqımız yadelli qəsbkarlarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir. Keçmiş nəsillər bizi bu günlərə gətirib çıxarıblar. Əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə Azərbaycan xalqı var idi, nə də Azərbaycan milləti var idi.

*
* *

Tariximiz bizim üçün dərs olmalıdır.

*
* *

Biz tarixi keçmişimizə nəzər salarkən ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla — yaradılan hər şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk.

*
* *

20-ci illərin, 30-cu illərin represiyaları on minlərlə insan həyatını məhv etmişdir. On minlərlə azərbaycanlı öz yurdlarından uzaq yerlərə sürgün olunmuşdur. Onların hüquqları pozulmuş, var-yoxları əllərin-

dən alınmış, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mə'nəvi irsə böyük zərbələr vurulmuşdur. O illərin qurbanları minlərlə, on minlərlə, bəlkə yüz minlərlə olmuşdur. Onların arasında Azərbaycanın görkəmli şəxsləri — Hüseyn Cavid, Mikayıl Müşviq, Əhməd Cavd, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz və başqa dəyərli insanlar olmuşdur. Eyni zamanda, o dövrdə Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.

*
* *

O illərin (sovet dövrü- red.) ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətlər də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycynın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

*
* *

Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər (sovet dövrü - red.) böyük əsas yaratmışdır.



Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı xeyli yaxşılaşmışdır. Bunlar hamısı tariximizin həqiqətləridir.

*
* *

1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intelektual, həm də mədəni potensialını yaradıbdır.

*
* *

Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur.

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.

*
* *

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində — XIX əsrin sonunda və XX əsrin əvvəllrində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

*
* *

Azərbaycan xalqı öz tarixinin ən ağır, ən çətin, keşməkeşli və eyni zamanda şərəfli mərhələsini yaşayır.



Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mə'nəvi dəyərlərimizlə, milli mə'nəvi ən'ənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

*
* *

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir.

*
* *

Xalqımız keçmişdən nəticə çıxarmalıdır.

*
* *

Tarix heç nəyi silmir.

*
* *

Respublikamızı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi, mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq.

Tarixi təhrif etmək xəstəliyi aradan götürülməlidir.

*
* *

Əsrin əvvəlinə nəzər salsaq, o vaxtdan başlayan proseslər, milli azadlığa, müstəqilliyə yönəldilmiş proseslər ancaq və ancaq XX əsrin sonunda müəyyən qədər məqsədə yetmək səviyyəsinə gəlib çatmışdır.

*
* *

Xalqımız XX əsrin əvvəlindən indiyədək çox şərəfli bir yol keçmişdir. Bu yol da ondan ibarətdir ki, xalqımızın mədəni, təhsil səviyyəsi artmış, mədəniyyətimiz yüksəlmiş, elmimiz, böyük iqtisadi potensialımız yaranmışdır. Xalqımızın həyat tərzində, dünya-görüşündə böyük dəyişikliklər əmələ gəlmiş, böyük bir siyasi-ictimai proses başlamışdır. Bunlar hamısı keçdiyimiz dövrün, onun mərhələlərinin bəhrəsi, nəticəsidir.



## MƏ'NƏVİ TƏRBİYƏ

Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

*
* *

Təhsil ocaqlarında gənclərimizi xalqımızın mə'nəvi dəyərləri əsasında tərbiyələndirmək, mə'nəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

*
* *

Ana hər bir insan üçün müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir.

Həqiqi mə'nəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mə'nəviyyatsız heç bir şeydirlər.

*
* *

Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, iste'dadlı balaları, evladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz iste'dadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.

*
* *

Hər xalqın, o cümlədən də Azərbaycan xalqının öz milli mənliyi var. O milli mənliyi də xalqın qabaqda gedən adamları ifadə etməli, təmsil etməlidirlər.

*
* *

İnsanların mə'nəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrə'yliyə, birliyə də'vət etmişdir.



*
* *

Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mə'nəvi, milli ən'ənələr əsasında tərbiyə edilsinlər.

*
* *

Radio və televiziya insanları tə'sirləndirir, onların təkmilləşdirilməsinə, mə'nəviyyatca inkişafına kömək edir, dünyaya gözünü açır, onları bütün dünya ilə birləşdirir.

*
* *

Cəmiyyətimizdə saf mə'nəviyyatı bərqərar etmək, inkişaf etdirmək, bütün mənfi hallara qarşı mübarizəni gücləndirmək əsas vəzifəmizdir.

*
* *

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən

qorumaq üçün cəmiyyətimizə, xalqımıza ölkəmizə milli birlik, mənəvi həmrə'ylik vətəndaş həmrə'yliyi lazımdır.

*
* *

Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basırlarsa, bax, bu, xalqın ən böyük faciəsidir.

*
* *

Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir.

*
* *

Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.



Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir.

*
* *

Heç kim əbədi qalib ola bilməz.

*
* *

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.

*
* *

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə , böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.

*
* *

İnsanlar bir-birinə doğurdan da səmimi münasibət bəsləyirlərsə bu münasibət daimi olmalıdır.

Əgər yaxşı şəraitdə münasibət varsa və ağır şəraitdə həmin münasibətlər qırılırsa bu, insanların yüksək keyfiyyətə malik olmadığını göstərir .

*
* *

Ələbaxımlılıq mə'nəviyyatı pozur, ailə, torpaq təəssübünü heçə endirir.

*
* *

Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mə'nəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

*
* *

Qur'ani-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa də'vət edən tələblərdir, tövsiyələrdir.



Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mə'nəvi dəyərləri canlanıb, bərpa edilibdir.

*
* *

Faşistliyin, vəhşiliyin dərəcəsi yoxdur. Erməni işğalçılarının hərəkətləri məhz bunu sübut edir.

*
* *

Azərbaycan xalqı qəhrəman, cəsur, dəyanətli, saf əxlaqlı bir xalq kimi bütün dünyada tanınıb!

*
* *

Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

*
* *

Azərbaycan xalqı... dünyaya nümayiş etdirdi ki, o yenilməzdir, qəhrəmandır, ona nə qədər güclü təcavüz, təzyiq olsa da, onun iradəsini sındırmaq mümkün deyil.

Həyatımız nə qədər çətin, ağır olsa da uşaqlara qayğı, diqqət heç vaxt azalmamalıdır. Çünki onlar bizim sabahımızdır.

*
* *

Müharibədə vuruşan qəhrəman, cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar.

*
* *

Hər bir insan həyatda yaşamalı, inkişaf etməlidir, öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yeri tapmalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.

*
* *

Zaman dəyişir, bə'zən insanlar ayrı-ayrı məsələlərə cürbəcür qiymət vermək istəyirlər. Amma elə məfhumlar var ki, onlar heç vaxt dəyişməyəcəkdir.



İndi elə bir mərhələyə gəlib çatmışıq ki, özümüz öz taleyimizin sahibiyik, həyatımızı özümüz qururuq. Ona görə bu həyatı elə qurmalı, yaratmalı, bu günü də, sabahı da, keçmişi də elə tə'min etməliyik ki, səhv, yanlış olmasın.

*
* *

Bə'zən görürsən, əkiz qardaş, bacı da bir-biri ilə eyni xəsiyyətdə olmur. Bu təbiidir. Biz təbiətə qarşı heç bir zor işlədə bilmərik. Təbiətin yaratdığı təbii qanunlar heç kəsin istəyindən, yaxud sə'yindən asılı olmayaraq işləyir. Amma bu təbii qanunlar içərisində də bir olmaq, daha da sıx olmaq, bir-birinə dayaq olmaq, əl uzatmaq üçün imkanlar çoxdur.

*
* *

Bə'zən "birlik" sözünü o qədər işlədirlər ki, o, hörmətdən düşür. Çünki elə hər bir adam deyir ki, birlik olsun. Bilirsiniz, bir var ki, bu şüarı ayrı-ayrı məqsədlər üçün desinlər, bir də var ki, bu həyatımızın tələbindən doğan sözlər olsun. Mən Azərbaycan Prezidenti kimi xalqımızın mənə göstərdiyi e'timada güvənərək Respublikamıza başçılıq edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni

birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.

*
* *

Mən hər bir kəsə tövsiyə edirəm ki, göstərilən e'timadı qiymətləndirsin, e'timada sədaqətlə xidmət etsin.

*
* *

O insanlar ki, sədaqətlidirlər, saf mə'nəviyyatlarla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar – belə adamlar həmişə mənim silahdaşımdır, mənimlə birdilər və mən də bu adamlarla birlikdəyəm.

*
* *

Bu xəstəlik, yəni bir-birinə mane olma bir-birinə zərər vurmaq, bir vəzifəni tutmaqdan ötəri həmin vəzifədə olan adamın ayağının altını qazmaq xəstəliyi bizdə keçmişdə də olubdur, təəsüf ki, sonralar da olubdur.



Dünən kim nə cinayət edibsə, ona cavabdeh olmalıdır. Hansı səhvi edibsə, onu təhlil edib bir də belə səhv buraxmamalıdır.

*
* *

Əsas məqsədlərimiz, amallarımız yolunda hamı birləşməlidir!

*
* *

Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

*
* *

Rəhbərlik etmək, yə'ni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mə'nəvi haqqın olsun.

*
* *

Adamların mə'nəvi aləmi təkcə əməkdə, ictimai fəaliyyətdə deyil, həmçinin ailədə formalaşır.

Həyat mübarizədir. Respublikamızın həyatı daha çox mübarizlik tələb edir.

*
* *

Mən rüşvətə qarşı amansız olmuşam və yenə də olacağam. Oğruya-əyriyə qarşı amansız olmuşam və yenə də olacağam. Mən heç vaxt mənafe dalınca getməmişəm, bundan sonra da getməyəcəyəm.

*
* *

İnsan mə'nəviyyat üçün yaşamalıdır. Mə'nəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

*
* *

Bə'zən Azərbaycan ulduzlarının — çox görkəmli müğənnilərin, artistlərin, bəstəkarların fəaliyyətindən fərəhlənərək düşünürəm: Görəsən bundan sonra beləsi gələrmi ? Hər dəfə də öz-özümə cavab verirəm ki, mütləq gələcək, çünki xalqımız keçmişdə də əsrlər boyu belə iste'dadlar yetişdirib, indi də yetirir və bundan sonra da yetirəcək.



Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir.

*
* *

Azərbaycanın mö'təbər, ağıllı, tanınmış ağsaqqal adamları bə'zən kənarda (siyasi həyatdan – red.) qalıblar. Bə'zən özləri-özlərini kənara çəkiblər. Bə'zən məcburiyyət nəticəsində biganəlik mövqeyi tutublar. Ancaq bə'zi yaramaz qüvvələr , Azərbaycan xalqını ləkələyən qüvvələr meydana çıxıb, hətta özlərini xalq qəhrəmanı, milli qəhraman, azadlıq uğrunda mübarizənin aparıcı qüvvəsi kimi qələmə veriblər.

*
* *

Çox təəssüflər olsun ki, bizim daxilimizdə olan, çirkin əməllərlə yaşayan, çirkin məqsədlərə nail olmaq istəyən adamlar xalqımıza, ölkəmizə, millətimizə düşmən olan xarici qüvvələrlə bu sahədə birləşib hərə öz məqsədini daşıyırdı.

İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir... dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliyini, elmin səmərəliyini artırmaq üçün aparılmalıdır.

*
* *

Ancaq eyni zamanda belə düşünürəm ki, xalqımız dözümlü olduğu kimi, ziyalılarımız da, alimlərimiz də, müəllimlərimiz də, ən dözümlülərdəndir, ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri bilərək ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm: Gənclərimizin təlim-tərbiyəsi işinə təhsil, tədris işinə diqqətinizi azaltmayın. Əksinə belə bir şəraitdə diqqət, qayğı daha da artmalıdır. Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yetirəcəkdir.

*
* *

YAP-a şəxsi məqsədlər üçün gələnlər kənara çəkildilər. Kim ideya, məslək yolu ilə gəlibsə, o bütün çətinliklərə dözür, cəfakeşlik edir.



Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz. Fikir müxtəlifliyi təbii hadisədir. Bunu qəbul etmək lazımdır. Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır. Amma bu fikir müxtəlifliyini, bu fikir ayrılığını münaqişəyə çevirmək, küsmək, çəkişmək lazım deyil .

*
* *

Biz bütün qüvvələrimizi toplasaq, ziyalılardan, din xadimlərindən, alimlərdən , hörmətli adamlardan istifadə etsək, onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək tərbiyə, əxlaq , mənəviyyat məsələlərini döyüşçülər aşılaya bilərsə, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr bu bizim həm siyasi , həm də ideoloji işimiz olcaqdır. Lakin bu iş nəzəri şəkildə deyil, mütəşəkkil aparılmalıdır.

*
* *

Nə qədər böyük hörmət qazansan gərək başını o qədər aşağı tutasan, o qədər təvazökar olasan, qanun çərçivəsində işləyəsən, yüksək mə'nəviyyata malik olasan.

Azərbaycan xalqının ən yüksək xüsusiyyətlərindən biri onun dözümlülüyü, dəyanətliliyi və iradəsidir.

*
* *

Xeyriyyəçilik işini o adam görə bilər ki, onun şəxsi mülkiyyəti var və o öz şəxsi mülkiyyətindən kimə isə kömək edir.

*
* *

Rüşvətxorluq, korrupsiya, vəzifədən sui-istifadə bizim mə'nəviyyatımıza zidd olan hallardır.

*
* *

Mə'nəvi paklıq, saflıq, həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir. Ola bilər, belə insanlar əziyyət, zillət içərisində yaşayıblar. Ola bilər cürbəcür məhrumiyyətlərə mə'ruz qalıblar. Ancaq mə'nəvi ucalıq onlar üçün hər bir şeydən qiymətli olubdur.



Mən istərdim ki, hər bir şəxs öz mə'nəviyyatını hər şeydən üstün tutsun. Qeyri-qanuni toplanan sərvət, mal — bunlar heç vaxt insanlara....şöhrət gətirməyib .

*
* *

İdman insanları həm fiziki, həm də mə'nəvi cəhətdən yüksəldən bir vasitədir.

*
* *

Xalqımız öz mə'nəviyyatına, dininə və ən'ənələrinə sadiqdir.

*
* *

Rüşvətxlorluq bizi içimizdən yeyir, dağıdır. Cəmiyyətdə əxlaqı pozur, insanların mə'nəviyyatını pozur. Bunların hamısı da həm iqtisadi islahatların aparılmasına, həm ümumi işimizin getməsinə maneçilik törədir, həm də cəmiyyətimizdə zərərli ünsürlərin baş qaldırmasına şərait yaradır. Ona görə də rüşvətxorluqla mübarizə, belə halların qarşısının alınması, bu sahədə ciddi tədbirlərin görülməsi bizim əsas vəzifələrimizdəndir.

Bir tərəfdən camaatımız aclıq içindədir, kasıblar, qaçqınlar, duz-çörəyə möhtac olan adamlar var. Digər tərəfdən isə vəzifə tutan adamlar hər vasitəyə əl ataraq rüşvətxorluqla məşğul olub varlanmaq istəyirlər.

*
* *

Əgər mə'nəviyyat pozulmuşdursa hər şey pozulacaqdır. Mə'nəviyyatdakı pozğunluq cəmiyyətimizi belə ağır vəziyyətə, o cümlədən rüşvətxorluğa gətirib çıxarmışdır.

*
* *

İslam dini əsrlər boyu bizim mə'nəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını tə'min etmişdir.

*
* *

Qur'ani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məş'əldir.



Biz azərbaycanlılar — bu, sonradan gələcək bütün nəsillərə də tövsiyyə olunur — heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mə'nəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

*
* *

Xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri iste'dad potensialı vardır.

*
* *

Həyatın mə'nası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mə'nası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır.

*
* *

Şəhidlik səviyyəsinə çatmış insanların qəhrəmanlığı bizdə qürur hissi, iftixar hissi doğurur.

*
* *

Azərbaycan xalqı sülhsevər xalqdır!

Xalqımız həmişə yaradıcı, qurucu xalq olubdur!

*
* *

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

*
* *

Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yeri tapmalıdır.

*
* *

Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.

*
* *

Xalqı həmişə mə'nəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mə'nəvi əsaslar daha üstündür.



Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir.

*
* *

Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

*
* *

İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür.

*
* *

Rüşvətxorluq bizi içimizdən yeyir.

*
* *

Azərbaycan xalqı dərin mə'nəviyyata malik xalqdır, qəhrəman xalqdır!

İslam dini heç vaxt başqa dinlərə düşmənçilik göstərməmiş və göstərmir!

*
* *

Bizim amalımız safdır, pakdır, ülvidir. Bu amalllar bizi uğurlara, xoşbəxt günlərə gətirəcəkdir!

*
* *

Xalqımız keçmiş illərdə baş vermiş bütün hadisələrdən, faciələrdən, dəhşətlərdən nəticə çıxarmalıdır!

*
* *

Biz bundan sonra Azərbaycanın daxilində bir daha çəkişmələrə yol verə bilmərik və yol verməyəcəyik. Hər kəs bunu bilməlidir!

*
* *

Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir!



## *DİL*

Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!

*
* *

Hər bir xalqın, milliliyini, mə'nəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

*
* *

Dil böyük bir aləmdir.

*
* *

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.

*
* *

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!

*
* *

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik!

*
* *

Biz indi müctəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik... Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.



Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

*
* *

Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

*
* *

Azərbaycan dili bizi keçmişdə də, indi də , gələcəkdə də birləşdirəcəkdir.

*
* *

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik!

*
* *

Siyasi plüralizm yolu, söz azadlığı Azərbaycan dövlətinin demokratik prinsiplərinin və demokratik

hüquqi cəmiyyət yaradılmasının əsas şərtlərindən biridir.

*
* *

Cəlil Məmmədquluzadənin ən dəyərli cəhətlərindən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir.



## MİLLİ MÜNASİBƏTLƏR

Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Çalışacağıq ki, bu sərvətimiz əbədi olsun.

*
* *

Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da — bütünlükdə hamısı azərbaycanlıdır.

*
* *

Azərbaycanlı sözü bizi həmişə birləşdirib.

*
* *

İstər böyük, istər kiçik xalq olsun, fərqi yoxdur, onların özünəməxsus adət-ən'ənələri, folkloru, dilinin müəyyən ayrılığı yaşayıb və yaşamalıdır. Bu

da göstərir ki, onlar yaşamağa qadir olan adət-ən'ənələrdir.

*
* *

Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini e'tiqadından və siyasi əqidələrindən asılı olmayaraq, bərabər hüquqlara malikdirlər.

*
* *

Dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və bu hüquqlar qorunmalıdır.

*
* *

Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir.

*
* *

Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda



yaşayan, öz taleyini, öz həyatının bu torpağa bağlayan müxtəlif dinlərə e'tiqad edən adamlardır.

*
* *

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

*
* *

Respublikada bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi-plüralizm, söz azadlığı, sahibkarlıq azadlığı, vicdan azadlığı, dini e'tiqad azadlığı, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquqi bərabərliyi tə'min edilsin!

## VƏTƏNPƏRVƏRLİK

Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mə'nəviyyatsızdır.

*
* *

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə, torpağa, millətə sədaqət, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

*
* *

Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.



Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbyacanın müstəqiliyinin daimi, dönməz olması üçün sə'y göstərməlidir!

*
* *

Mən Respublikanın xoşbəxt gələcəyini görürəm və əmin ola bilərsiniz ki, biz bunların hamısına nail ola biləcəyik!

*
* *

Xalqımızın, Vətənimizin, Respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir!

*
* *

Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir!

*
* *

Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır!

Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik!

*
* *

Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o bu bayraq altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

*
* *

Azərbaycanlılar! Harda olursan ol, hansı ölkədə yaşayırsan-yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqiliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən!

*
* *

Azərbaycanın gəncləri Azərbaycanın gələcəyidir!



Azərbaycan müstəqil dövlətdir, nə olursa-olsun, bu müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Qırılsaq da, ölsək də müstəqilliyimizi əldə saxlayacayıq. Əgər bizi də qırsalar, balalarımız müstəqilliyimizi davam edəcəklər.

*
* *

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar. Biz Bakı şəhəri — ölkəmizin paytaxtı ilə haqlı olaraq fəxr edirik. Onun bütün xüsusiyyətlərinə görə fəxr edirik. Eyni zamanda onun təbii gözəlliyinə, me'marlıq gözəlliyinə görə fəxr edirik.

*
* *

Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daimi yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!

Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir.

*
* *

Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

*
* *

Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır.

*
* *

Azərbaycan xalqı özünün tarixi qəhrəmanlıq ən'ənələrini uca tutaraq Vətənini, torpağını, Azərbaycan Respublikasının müstəqilliyini qorumağa qadirdir.



Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

*
* *

Xalqımızın incəsənət, mədəniyyət sahəsində nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

*
* *

Azərbaycan xalqı dərin mə'nəviyyata malik xalqdır, qəhrəman xalqdır.

*
* *

Öz dilini inkişaf etdirən alim müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim — onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəlidə getməsinə xidmət göstərir.

Bizim hamımızın bir vətəni var – bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ən'ənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.

*
* *

Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

*
* *

Doğma republikamızın indiki ağır vəziyyətdən çıxması üçün hər bir vətəndaş öz səyini əsirgəməməlidir.

*
* *

Biz fəxr edirik ki, azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhramanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır!



Torpaqlarımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur.

*
* *

Mən hesab etmirəm ki, bizim xalqımız aciz xalqdır. Mən hesab etmirəm ki, bizim xalqımız bütün xüsusiyyətlərinə görə ermənilərdən, erməni xalqından gücsüz xalqdır. Mən belə hesab etmirəm. Güman edirəm ki, siz də belə hesab etmirsiniz.

*
* *

Azərbaycanın mərd, igid oğulları, vətənpərvər insanları, respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumuş, qoruyub saxlamaq üçün mübarizə etmiş və canlarını qurban vermişlər.

*
* *

Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır.

Şəhidlər Vətənini sevən əsl Azərbaycan gəncləri olublar.

*
* *

Yenə də Azərbaycanın müstəqilliyi çox təhlükə altındadır. Bunu hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı bilməli, dərk etməli və Azərbaycanın müstəqiliyinin daimi, dönməz olması üçün sə'y göstərməlidir.

*
* *

Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ən'ənənləri bu gün, müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır.

*
* *

Azərbaycan xalqı qəhrəman xalqdır. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi.



Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

*
* *

Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik.

*
* *

Bizim hamımızın bir vətəni var — bu Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq — bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər güşəsi hər birimiz üçün müqəddəs yerdir!

*
* *

Bütün Azərbaycan xalqı adından bəyan edirəm ki, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmaycaq, onlar qəlbimizdə daim yaşayacaqdır. Onların qəhrəmanlığı, şəhidliyi

Azərbaycan Ordusunun əsgərləri üçün böyük örnək olacaqdır.

*
* *

Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!

*
* *

Azərbaycanlılar! Azərbaycan Respublikasının bu gününü və gələcəyini qoruyun!

*
* *

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır!

*
* *

Milli azadlığa nail olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.



Hər bir vətəndaş Vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır!

*
* *

Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır!

## *ÖZÜ HAQDA*

Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam.

*
* *

Mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm.

*
* *

Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.



Mənim üçün xalqın mənə göstərdiyi e'timaddan və e'tibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə, mən özüm üçün başqa bir mükafat görmürəm.

*
* *

Demokratik prinsiplər həyatımın, fəaliyyətimin əsasını təşkil edir.

*
* *

Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır. Mənim başqa məqsədim, amalım yoxdur. Bunu isə mən xalqla birlikdə, xalqın dəyərli insanları, hörmətli adamları ilə, xalqın irəli çəkdiyi nümayəndələri ilə birlikdə edə bilərəm.

*
* *

Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlərlə yaşayıram.

Bu siyasəti mən ona görə apara bilirəm ki, bu mənim iradəmdir, bu mənim həyatımın məqsədidir, mə'nasıdır.

*
* *

Azərbaycan Prezidenti kimi şəxsən mən Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz.

*
* *

Mən dəfələrlə demişəm... Həyatımın mə'nasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Bir daha bəyan edirəm ki, mənim üçün ən yüksək mükafat bundan sonra da xalqın e'timadını doğrultmaqdan ibarətdir.

*
* *

Mən nikbinəm, hesab edirəm ki, xalq, millət, Azərbaycan vətəndaşları – biz hamımız birlikdə bu çətinliklərin öhdəsindən gələcəyik. heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.



Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram.

*
* *

Mən öz üzərimə, dediyim kimi, böyük məs'uliyyət götürmüşəm. Məs'uliyyət də ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim, onu müstəqil bir dövlət kimi yaşamasını tə'min edim və Azərbaycan xalqını birləşdirim.

*
* *

Azərbaycanın belə bir dağılan vəziyyətində, parçalanan vəzəyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam — Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim.

*
* *

Mən həmişə həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur!

Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm və heç kəs də xam xəyala düşməsin, heç kəs başqa fikirələ düşməsin.

*
* *

Mən bu gün bir daha o anları, o dəqiqələri, o saatları, o gərgin gecəni və oktyabrın o işıqlı günəş şüaları ilə işıqlanmış Bakını yadıma salıram. Əmin idim ki, xalq mənim səsimə səs verəcəkdir.

*
* *

Heç kəs iradəmi sındıra bilməz!

*
* *

Mən Yeni Azərbaycan Partiyası ilə bərabərəm və partiyanın bugünkü vəziyyətini görərkən çox sevinirəm və hesab edirəm ki, Yeni Azərbaycan Partiyası yaşayacaq və fəaliyyət göstərəcəkdir.

*
* *



Ölkənin ağır vaxtında prezident seçiləndə, prezident kürsüsünə qalxanda da, and içəndə də mən təkcə Azərbaycanın ərazisində olan azərbaycanlılara yox, bütün dünyada yaşayan azərbaycnlılara müraciət etdim. Bildirdim ki, respublikanın bu ağır dövründə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər br insan gərək Vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.

*
* *

Mən demokratiya tərəfdarıyam!

*
* *

Mənim həyatım xalqa mənsubdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm.

*
* *

Mən bu böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim.

Mən şe'rə də, mahnıya da çox hissiyyatlı adamam.

*
* *

Mənim qapım ziyalılar üçün açıqdır.

*
* *

Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq!

*
* *

Bir prezident kimi mən hər bir vətəndaşın təhlükəsizliyinin, hüquqlarının qorunmasının tə'minatçısıyam!



## GÖRKƏMLİ ZİYALILAR HAQDA

Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mə'nəviyyatını dünyaya nümayiş etdirirlər.

*
* *

Dünya təcrübəsi göstərir ki, yübileyin keçirilməsi bir tərəfdən yübilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir.

*
* *

Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq.

Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.

*
* *

Füzuli Azərbaycan şe'rinin, Şərq şe'rinin ən yüsək zirvəsinə çatmış və onun yaratdığı şe'rlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir insanlara böyük mə'nəvi ruh verir.

*
* *

Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır... Bu mə'nəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, bütün müharibələrdən, döyüşlərdən, vuruşlardan keçərək yaşayır, günü-gündən yüksələrək zirvələri fəth edir.

*
* *

Füzuli bütün əsərlərində insanları sədaqətə, e'tibarlılığa, ata-anaya, Vətənə, torpağa, eşqə, məhəbbətə öz ülvi duyğularına sədaqətə də'vət etmişdir.



Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir.

*
* *

Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə Füzulinin yaratdığı mə'nəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq.

*
* *

Şah İsmayıl (Xətai) görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirmiş insandır.

*
* *

Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir.

*
* *

Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist,

filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir.

*
* *

Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mə'nəvyyat mənbəyidir, mə'nəvi dayaqdır. O bizə ilham verir, bizə güc verir, sür'ətlə irəli getməkdə, xalqımızı bu günkü vəziyyətdən çıxartmaqda bizə kömək edir.

*
* *

Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir.

*
* *

Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycanın mə'nəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir.



Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır.

*
* *

Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir.

*
* *

Biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim kimi, böyük siyasətçi kimi yanaşmalıyıq.

*
* *

"Ölülər" əsəri haqqında mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını və özünəməxsus fikir iste'dadını əks etdirir.

Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdir n fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir.

*
* *

Cəlil Məmmədquluzadə dahi insandır... Hesab edirəm ki, bəşər tarixində "Ölülər" kimi bir mövzuda əsər yaranmayıbdır... bu cür psixoloji bir mövzu, bunun kəşf edilməsi doğrudan da Cəlil Məmmədquluzadənin nə qədər dahi adam olduğunu göstərir.

*
* *

Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcəkdir.

*
* *

Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir.



Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır...

*
* *

Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu, bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır.

*
* *

Hüseyn Cavidin "İblis"i heç də Hötenin "Faust"undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik.

*
* *

Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur.

Üzeyir hacıbəyov fövqal'adə fitri iste'dadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.

*
* *

Üzeyir Hacıbəyovun əsərlərinin ictimai-siyasi və mə'nəvi məzmunu böyük əhəmiyyət kəsb edir. Bəstəkarın əsərlərinin hamısında insan azadlığı, insanın paklığı, səmimiliyi, insanların bir-birinə münasibəti tərənnüm edilibdir.

*
* *

Böyük Hacıbəyovun yaratdığı "Arşın mal alan" əsəri dahi bir əsərdir, mədəniyyətimizdə çox görkəmli yer tutmuş əsərdir.

*
* *

"Şah İsmayıl" operasının böyük əhəmiyyəti təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstskar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir



insan kimi müraciət etmişdir. Onun bu mövzuya müraciət edərək belə gözəl opera yazmasının incəsənət üçün əhəmiyyəti böyükdür, həmçinin böyük tarixi, siyasi əhəmiyyəti var.

*
* *

O illər (sovet dövrü-red.) mədəniyyətimizdə, ədəbiyyatımızda, elmimizdə böyük şəxsiyyətlər yetişdiribdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi dahi bəstəkarlarımız yeni əsərlər yaratmışlar. Cəfər Cabbarlı kimi dahi yazıçımız Azərbaycan xalqına böyük ədəbi töhfələr vermişdir. Ədəbiyyatımızda Səməd Vurğun, Rüsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov kimi böyük şəxsiyyətlər yetişmişdir. Alimlərimiz — Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mirzə İbrahimov, bir çox başqa alimlər 1945-ci ildə ilk dəfə Azərbaycanın böyük elmini bir yerə yığıb Elmlər Akademiyası yaratmışlar. Bunların hamısı o çətin, ağır illərin eyni zamanda, böyük nailiyyətlridir.

*
* *

Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şürasının rəhbəri Yusif Məmmədəliyevin — azərbaycanlının, Azərbaycan

xalqının nümayəndəsinin olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu.

*
* *

Ayrı-ayrı alimlər öz əsərləri ilə tanınır. Amma elmi təşkil edənlər, elmi inkişaf etdirənlər öz əsərlərindən savayı, xidmətləri ilə də tanınır və qiymətləndirilir. (akad. Y.Məmmədəliyev haqda— red.)

*
* *

Yusif Məmmədəliyev öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir.

*
* *

Yusif Məmmədəliyev öz fitri iste'dadı, fədəkarlığı, vətənpərvərliyi ilə qısa bir müddətdə dünyada, xalqımızın arasında, respublikamızda görkəmli yer tutub və tarixi şəxsiyytlərdən birinə çevrilmişdir.



Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir.

*
* *

Səməd Vurğunu biz təkcə şair kimi, alim kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai-siyasi xadim kimi həmişə xatırlayırıq və o, tariximizə belə daxil olubdur.

*
* *

Vahid böyük bir xəzinədir. Siz bu xəzinənin bir neçə laylarını göstərdiniz .

# MÜNDƏRİCAT

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Dövlətçilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6
Ordu quruculuğu . . . . . . . . . . . . . . . . . . . . 37
İqtisadiyyat . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
Mədəniyyət . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
Tarix . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
Mə'nəvi tərbiyə . . . . . . . . . . . . . . . . . . . . . 76
Dil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
Milli münasibətlər . . . . . . . . . . . . . . . . . . . 102
Vətənpərvərlik . . . . . . . . . . . . . . . . . . . . . 105
Özü haqda . . . . . . . . . . . . . . . . . . . . . . . . 117
Görkəmli ziyalılar haqda . . . . . . . . . . . . . . . 124
Mündəricat . . . . . . . . . . . . . . . . . . . . . . . . 135

Neşriyyatın redaktoru *E.R. Yüzbaşov*
Ressamı *P. Ibadova*
Texniki redaktoru *R.Ş. Hüseynov*
Korrektoru *N. Qasımova*

Yığılmağa verilmiş 09.03.1997. Çapa imzalanmış 28.03.1997
Format 60x90 1/32. Ofset çap üsulu. Helvetika qarnituru. Şerti çap vereqi 1.2. Hes.-neşr. vereqi 1.8
Tiraj 3000 Qiymeti müqavile ile

"Azerbaycan Universiteti" neşriyyatı
370110, Bakı-110, Ak. Mireli Qaşqay küç. 84

Kitab "MEGA" metbeesində ofset üsulu ilə çap olunmuşdur. Tel: 0090 212 551 11 19
Istanbul, T.C.



BAKI

ISBN 5-8066-0770-4